# “Məktəbli” Kitab Evi

## Reportaj

Belə gözəl yazın ovqatında “Kitab dükanı ovum” davam edir. Bu gün bir az şəhərin mərkəzindən uzaqlaşmaq, kənar yerlərdə əhalinin hansı müəlliflərin hansı kitablarını oxuduqlarını öyrənmək fikrinə düşdüm. Bir neçə Bakıətrafı qəsəbəni - Mərdəkan, Ramanı, Zabrat və Binəni gəzdim. Heç birində “Kitab dükanı gördüm” deyən olmadı. Bir-iki yerdə dəftərxana ləvazimatı dükanı gözümə dəydi, onlarda da ancaq beş-on dərslik kitabı vardı, vəssalam.

Fikrimdə dağı arana, aranı dağa köçürə-köçürə qulaqcıqlarımı taxıb radionu açdım. Rəhmətlik Gülağa Məmmədovun “Sumqayıt mahnısı” hansısa dalğada səslənirdi. Rəhmətlik necə də gözəl oxuyub! Elə ondaca Sumqayıta getmək fikrinə düşdüm. Bakımızın qardaş şəhərində, hələ Sovetlər dönəmindən “Gənclər şəhəri” adlandırılan şəhərdə kitab dükanlarının vəziyyətilə maraqlanmaq, mütaliənin hansı səviyyədə olduğunu görüb bilmək məqsədiylə yol aldım düz Sumqayıta. Uzun illərdi ki, bu şəhərdə olmamışdım. Necə gözəl, necə abad, necə təmiz şəhərmiş. Parkları güllü-çiçəkli, səliqəli, baxımlı, hər tərəfi də səliqə-sahmanlı. İkinci mikrorayondakı Sülh küçəsiylə addımladıqca şəhərə valeh oldum. Yol boyu fürsətdən istifadə edib qarşıma çıxanlardan mütaliəylə bağlı sorğu apardım. Aldığım hər üç cavabdan biri bu idi: Elxan Elatlının kitablarını oxuyuram. Burada da tələbələr bədii ədəbiyyata ara-sıra müraciət edirlərmiş.






Gözlərim ard-arda düzülən dükanlara baxa-baxa kitab mağazası axtarırdı. Xeyli irəli getdikdən sonra artıq az qala, ümidimi itirmək üzrəydim ki, həmin küçəylə N.Nərimanov küçəsinin kəsişməsində “Məktəbli Kitab Evi” adlı çox gözəl dükan gördüm. Çox işıqlı, rəngarəngliyi ilə ürək açan bir dükandı.

Satıcı Fəridə xanımla xeyli söhbətləşdim. Sumqayıt oxucularının hansı kitabları oxuduqlarıyla bağlı mənə xeyli məlumat verdi. Dükanda hər zövqə uyğun, hər janrda, Azərbaycan, rus və Türkiyə türkcəsində bol çeşiddə kitablar müştərilərə təqdim olunub. Klassik ədəbiyyat, uşaq ədəbiyyatı, detektivlər, özünü inkişaf kitabları, dərsliklər, müxtəlif səpkili romanlar rəflərdə bərq vurur. Bu dükanda ən çox detektiv janrda yazılan kitablar satılır. Bütün kitablar arasında satış üzrə ilk üç yeri Çingiz Abdullayev, Varis və Elxan Elatlının əsərləri tutur. Xanımın dediyinə görə ən çox alınan bu müəlliflərin kitablarıdır. Çingiz Abdullayevin əsərlərini ən çox rus dilində alırlar. Bu dildə daha gözəl olduğunu deyir müştərilər. Aqata Kristinin kitablarına tələbat böyükdür. Gənclər özünüinkişafla bağlı kitablara üstünlük verirlər. Robert Kiyosakinin maliyyə məsləhətləri kitabı - “Varlı ata, kasıb ata” kitabı Sumqayıt gənclərin ən çox maraqlandığı kitabdır. Kitabda maliyyə müstəqilliyindən və varlanmağın yollarından bəhs edilir. Bundan başqa, Napoleon Hillın “Zənginliyi açarı”, Brayan Treysinin “Məqsədlər”, “Uğurun 100 qanunu”, Robin Şarmanın “Ferrarisini satmış rahibdən liderlik dərsləri” kitablarına da maraq var. Mark Levini də çox alıb oxuyurlar. Freyd və Oşonun kitabları Sumqayıt gəncləri arasında da dəbdədir. Sara Cionun da kitablarını sevənlər az deyil. Klassik ədəbiyyatdan Nizaminin “Xəmsə”sini alanlar az da olsa tapılır. Tolstoy, Dostoyevski, Qoqol, Selincer, Bulqakov, Balzakın əsərlərini alanlar çox tək-tük hallarda rast gəlinir. Markesin əsərlərinisə nisbətən daha çox sevirlər. Mark Tveni daha çox uşaqlar həvəslə alıb oxuyur. Den Braunun da kitablarını soruşanlar tapılır. Prozayala nisbətdə poeziyaya maraq olduqca az olsa da, Ramiz Rövşənin kitabları çox alınır. Müəyyən qisim oxucular da Bəxtiyar Vahabzadənin şeirlər kitabıyla maraqlanır. Xalid Hüseynin “Çərpələng uçuran”, “Min möhtəşəm günəş”, “Və dağlardan səda gəldi” kitablarını da alıb oxuyanlar çoxdu. Cəfər Cabbarlı, Cəlil Məmmədquluzadənin əsərlərini soruşanlar, təəssüflər olsun ki, xeyli azdır. Son dövrlərdə uşaq ədəbiyyatında da gözlə görünəcək səviyyədə canlanma var. Əvvəllər ancaq dərsliklər, testlər alınırdısa, indi artıq uşaq ədəbiyyatı nümunələrinin də çeşidi artmış və bu sahədə də satış xeyli dirçəlmişdir. Ən çox müxtəlif sahələr üzrə ensiklopediyalar satılsa da, “Altun” nəşriyyatının uşaqlarçün olan kitablarına tələbat var. Həmin kitabların qiymətinin aşağı olduğuna görə valideynlər ürəklə onları uşaqlara üçün ala bilirlər. Ümumiyyətlə isə, alıcılar kitabların satış qiymətinin bahalığından, tərcüməylə bağlı probelmlərdən, bəzi hallarda kitabların keyfiyyətsiz nəşrindən xeyli giley-güzar da etdilər.

Bu mağazanın alıcıları daha çox Azərbaycan və Türkiyə türkcəsində nəşr olunmuş kitablara üstünlük verir. Rus dilində olan kitablara tələbat azalıb. Demək olar ki, ancaq məktəblərdə rus bölməsini bitirənlər rus dilində kitab alır. Qalanı Azərbaycanca və əksər hallarda Türkiyə türkcəsində oxuyurlar.

Orda olduğum müddətdə mağazaya girən müştərilərin çoxu dərsliklərlə maraqlanır, müxtəlif testlər alırdılar. Belə məlum oldu ki, bədii kitablardan daha çox dərslik satılır. Elə fikrimi satıcı xanım da təsdiqlədi. Bir müştəri xanım, - “dərslik almağa məcburam, onu mütləq almalıyam. Amma əlavə bədii ədəbiyyat alıb oxumağa nə pulum var, nə də həvəsim” - dedi. Heç bilmədim xanıma nə cavab verim. Düşünə-düşünə rəflərdəki kitablara göz gəzdirdim. Yüzlərlə kitab var. Bu kitabları çap etməkdən ötrü, bəlkə də, yüz minlərlə ağac kəsilib. Frensis Bekon deyir ki, kitablar - zamanın dalğaları ilə səyahət edən və nəsildən-nəslə öz qiymətli yükünü ehtiyatla aparan fikir gəmiləridir. Ümid edirəm ki, fikir gəmilərində dəyərli düşüncələr, dəyərli sənət nümunələri okean dalğalarını dəlib yaşayacaqlar. Bu işıqlı arzularla “Məktəbli Kitab Evi”ndən ayrılıb öz yoluma davam edirəm...

**Hazırladı:**
**Xanım Aydın**

